

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 168 (23.330)

*10 sentyabr 2019-cu il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 9 sentyabr tarixli Sərəncamı ilə 2019-2020-ci tədris ilində tələbə qəbulu imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərmiş və Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdü verilmişdir. Həmin tələbələr arasında Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin məzunları da vardır.

**Axundzadə Abdulla Elxan oğlu**

**Cəfərli Məleykə Malik qızı**

**İsmayılov Nicat Vilayət oğlu**

**Məmmədtağılı Murad Muxtar oğlu**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun yaradılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikasında fundamental elmi yeniliklərin stimullaşdırılmasını, onun təbii resurslarının, mədəni və tarixi irsinin tədqiqinin genişləndirilməsini, elmin müxtəlif sahələrində dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən innovativ layihələrin dəstəklənməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondu yaradılsın.

2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti:

2.1. Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi ilə birlikdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Elmin İnkişafı Fondunun nizamnaməsinin layihəsini hazırlayıb Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə təqdim etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 7 sentyabr 2019-cu il*

## Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə keçirilmişdir





Sentyabrın 7-də Naxçıvan Muxtar Respublikasında 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq demişdir ki, hər il muxtar respublikada payız-qış mövsümünə hazırlıq diqqətdə saxlanılır, müşavirə keçirilir, aid qurumlara müvafiq tapşırıqlar verilir. Yaradılan şəraitdən səmərəli istifadəyə və qurulanların qorunub saxlanılmasına diqqət artırılır. Müəssisə və təşkilatların qışa hazırlığı, müşahidə olunan problemlərin aradan qaldırılması mövsümü uğurla başa vurmağa, əhalinin qış aylarında rahatlığının təmin olunmasına imkan verir. Qış mövsümünə hazırlıqla bağlı muxtar respublikada elektrik enerjisi, təbii qaz və içməli su təchizatı, eləcə də istilik təminatı ilə yanaşı, həm də digər sahələrdə müvafiq işlər görülür, soyuducu anbarlarda yerli məhsullardan ibarət ehtiyat yaradılır. Ona görə də 2019-2020-ci illərin payız-qış mövsümünə hazırlıq da mühüm əhəmiyyət daşıyır.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov, Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəisi Namiq Paşayev, "Naxçıvanqaz" İstehsalat Birliyinin direktoru Ramin İsmayılov payız-qış mövsümünə hazırlıqla əlaqədar çıxış etmişlər.

Əlahiddə Ümumqoşun Ordu komandanı Kərəm Mustafayev, Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri Fazil Ələkbərov, "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının komandiri Niyaməddin Tağıyev, Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev, Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənsur Gülməmmədli və Naxçıvan Muxtar Respublikası baş nazirinin müavini – maliyyə naziri Səbuhi Məmmədov aidiyyəti üzrə məlumat vermişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Bu gün ümummilli lider Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən ölkə Prezidentinin diqqət və qayğısı nəticəsində muxtar respublikada hərtərəfli inkişafa nail olunmuşdur. Sosial-iqtisadi islahatların əhatə dairəsi genişləndirilmiş, əhalinin rifahı yaxşılaşdırılmış, ərzaq və enerji təhlükəsizliyi tam təmin edilmişdir. Yaşayış məntəqələrində içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması da sakinlərin rahat yaşayışının təmin olunması sahəsində görülən işlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır. Muxtar respublikada həyata keçirilən bu tədbirlər artıq neçə illərdir ki, payız-qış mövsümünü problemsiz başa vurmağa imkan verir. Lakin buna baxmayaraq, hər il qış aylarında qarşıya çıxan problemlərin aradan qaldırılması üçün hazırlıq işlərinin görülməsi, lazımi mal-material ehtiyatının yaradılması diqqətdə saxlanılır. Bu il də payız-qış mövsümünə hazırlıq məsələlərinə diqqət artırılmalı, aid qurumlar tərəfindən müvafiq tədbirlər həyata keçirilməlidir.

Ali Məclisin Sədri demişdir: Dövlət Energetika Xidməti elektrik enerjisinin verilməsində fasiləsizliyi təmin etmək üçün mövcud infrastrukturun yenilənməsini davam etdirməli, istismar üçün yararsız olan avadanlıq və xətlər vaxtında müəyyən edilərək dəyişdirilməlidir. Qış mövsümünə hazırlıqla bağlı transformator və yarımstansiyaların oktyabrın 20-dək texniki baxışdan keçirilməsi başa çatdırılmalı, tələb olunan mal-materialın, avadanlıqların alınıb gətirilməsi və onların zəruri ehtiyatının yaradılması diqqətdə saxlanmalı, qəza-bərpa briqadalarının komplektləşdirilməsi noyabr ayınadək yekunlaşdırılmalıdır. İşçilər qış mövsümünə uyğun xüsusi geyimlə təmin olunmalı, elektrik enerjisinin ötürülməsi zamanı yaranan texniki itkinin minimum həddə saxlanması üçün tədbirlər davam etdirilməli, enerji israfçılığının və elektrik enerjisindən qanunsuz istifadə hallarının qarşısının alınması üçün aid orqanlarla birlikdə nəzarət tədbirləri gücləndirilməlidir. Smartkarttipli sayğacların quraşdırılması digər rayon mərkəzlərində də həyata keçirilməlidir.

Qeyd olunmuşdur ki, "Naxçıvanqaz" İstehsalat Birliyi oktyabr ayının 20-dək qaz təchizatı sistemində texniki baxışı yekunlaşdırmalı, mövcud nasazlıqların aradan qaldırılması üçün tədbirlər görməli, təbii qazın şaxtalı hava şəraitində nəqli ilə əlaqədar hazırlıq işlərini vaxtında başa çatdırmalı, istismar üçün yararsız qaz xətlərinin və avadanlıqların müəyyən edilərək yenilənməsini diqqətdə saxlamalı, qaz sayğaclarına müdaxilənin qarşısını almaq məqsədilə yerlərdə abonent qutularının quraşdırılması işlərini yekunlaşdırmalıdır. Qazın nəqli zamanı meydana çıxan texniki itki normalarının minimal həddə saxlanılması üçün tədbirlər görülməli, təbii qazdan qanunsuz istifadə hallarına nəzarət gücləndirilməli, istehlak olunan qazın dəyərinin tam həcmdə toplanması təmin edilməlidir. Həmçinin qaz təsərrüfatında, xüsusilə qəza xidmətində çalışanların ixtisas hazırlığına cəlb olunmasına diqqət artırılmalı, qış mövsümü başlayanadək işçilərin müvafiq geyim və avadanlıqlarla təmin olunması həyata keçirilməlidir. Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi və "Naxçıvanqaz" İstehsalat Birliyi Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəmərində qış mövsümündə təzyiqin artırılması məqsədilə Naxçıvan Şəhər Qaz Paylayıcı Stansiyasında yeni qaz kompressor stansiyasının qurulması üçün təklifləri hazırlayıb təqdim etməlidir.

Ali Məclisin Sədri demişdir: Şəhər və rayon icra hakimiyyətləri cari il noyabr ayının 1-dək bütün qazanxanaların qış mövsümünə hazırlıq işlərini başa çatdırmalı, qazanxanalardan çıxan istilik xətlərinin üzərinin örtülməsini, qazanxanaların təbii qazla yanaşı, mazut və dizel yanacağı ilə də işləyə bilməsini təmin etməlidir. Elektrik enerjisi, təbii qaz təchizatı sahəsində mövcud nöqsanlar aradan qaldırılmalı, ictimai yaşayış binalarının giriş qapı və pəncərələrinin, zirzəmilərdən keçən istilik xətlərinin istismar üçün yararlılığı yoxlanılmalı, qış mövsümündə yolların təmizlənməsi üçün kommunal xidmət texnikalarının saz vəziyyətdə saxlanmasına diqqət artırılmalıdır. Naxçıvan şəhərində şəhər icra hakimiyyəti, rayonlarda isə Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi yerli icra hakimiyyəti orqanları ilə birlikdə içməli su və kanalizasiya sistemlərinin qışa hazırlıq vəziyyəti ilə bağlı müşahidə olunan nöqsanları aradan qaldırmalı, əhali keyfiyyətli içməli su ilə təmin edilməlidir. Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi suvarma mövsümü başa çatdıqdan sonra su ehtiyatlarının yaradılmasını diqqətdə saxlamalıdır.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada həyata keçirilən tikinti-quruculuq tədbirlərinin nəticəsi olaraq əksər təhsil, səhiyyə və mədəniyyət müəssisələri, idman obyektlərinin isə hamısı istilik sistemi ilə təchiz edilib. Lakin hələ də bəzi müəssisə və təşkilatların binalarının qızdırılmasında maye qaz və neft məhsullarından istifadə olunur. Neft və Qaz Məhsulları Təminatı Müəssisəsi həmin müəssisələrin qış mövsümündə fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə tələb olunan maye qaz və neft məhsullarının tədarükünü və satışını davam etdirməli, tələbata uyğun yanacaq ehtiyatının yaradılması üçün tədbirlər görməlidir. Payız-qış mövsümündə təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin fasiləsiz fəaliyyətinin təmin olunması üçün aid nazirliklər və yerli icra hakimiyyətləri tərəfindən tədbirlər görülməlidir. Səhiyyə Nazirliyi əhaliyə keyfiyyətli xidmət göstərilməsi üçün tibb müəssisələrinin dərman preparatları ilə təminatına nəzarəti gücləndirməli, elektrik generatorlarının işlək vəziyyətdə olması yoxlanılmalıdır. Maliyyə Nazirliyi istilik sistemi olmayan müəssisələrə qış mövsümündə tələb olunan mal-materialın alınması üçün maliyyə vəsaitinin ayrılmasını təmin etməli, dövlət müəssisələrində enerji daşıyıcılarından istifadə zamanı limitə və borc qalığının yaranmasına nəzarət etməlidir. Büdcədən maliyyələşən bütün dövlət müəssisə və təşkilatları elektrik enerjisi və təbii qazdan qənaətlə istifadə etməli, israfçılığa yol verilməməlidir.

Müşavirədə tapşırılmışdır ki, Dövlət Nəqliyyat Xidməti qış aylarında sərnişin daşınması ilə məşğul olan nəqliyyat vasitələrinin texniki cəhətdən saz vəziyyətdə olmasına və qrafik üzrə hərəkətinə nəzarəti gücləndirməlidir. Avtomobil Yolları Dövlət Agentliyi yolların qardan təmizlənməsi üçün texnikaların işlək vəziyyətdə olmasını və qum ehtiyatı yaradılmasını təmin etməlidir. Naxçıvan Beynəlxalq Hava Limanı bütün maşın-mexanizmlərin, elektrik və işıqlandırma sistemlərinin, rabitə qurğularının texniki baxışını vaxtında

*Ardı 2-ci səhifədə*

yekunlaşdırmalı, tələbata uyğun yanacaq və mal-material ehtiyatı yaratmalıdır. "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti dəmir yolu nəqliyyatında hərəkətin təhlükəsizliyini təmin etməli, vaqonlara və lokomotivlərə texniki baxış keçirməli, yol təsərrüfatının saxlanmasına, material ehtiyatının yaradılmasına diqqəti artırmalıdır. Fövqəladə Hallar, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri mövsümi qazanxana işçilərinin qabaqcadan təlimatlandırılması ilə bağlı hazırlıq tədbirlərinə başlamalı, bütün ocaqçılar müvafiq kurslara cəlb olunmalıdırlar. Fövqəladə Hallar Nazirliyi, Dövlət Gömrük Komitəsi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi standarta uyğun olmayan və sənaye üsulu ilə hazırlanmayan qızdırıcı elektrik və qaz cihazlarının muxtar respublikaya idxalının, satışının və istismarının qarşısını almaq üçün tədbirlər görməli, bununla əlaqədar istehlakçılar və sahibkarlar əvvəlcədən məlumatlandırılmalıdırlar.

Qeyd olunmuşdur ki, İqtisadiyyat Nazirliyi mövsüm ərzində tələbatdan artıq istehsal olunmuş kənd təsərrüfatı məhsullarının soyuducu anbarlara tədarükünü davam etdirməli, qəbul olunmuş meyvə-tərəvəzin saxlanılması üçün müvafiq texnoloji şəraitin yaradılmasına nəzarəti artırmalıdır. Həmçinin İqtisadiyyat Nazirliyi Naxçıvan Şəhər İcra Hakimiyyəti ilə birlikdə quru odun tədarükü və odun kömürü istehsalı və satışı sahəsinin yaradılmasını təmin etməlidirlər. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində olan bərpa müəssisələrinin, eləcə də Ahıllar Evinin qış mövsümünə hazırlığı ilə bağlı müvafiq tədbirlər görməlidir. Hərbi hissələr üçün yun corabların toxunması işi bu il də davam etdirilməlidir. Rabitə və Yeni Texnologiyalar Nazirliyi fasiləsiz poçt və rabitə xidmətlərinin göstərilməsi üçün mal-material ehtiyatının yaradılmasını təmin etməlidir. Ədliyyə Nazirliyinin Penitensiar Xidməti cəzaçəkmə müəssisələrinin istiliklə fasiləsiz təmin olunmasını, məhkumların isti geyim və ərzaqla təchizatını diqqətdə saxlamalıdır. Muxtar respublika ərazisindəki hərbi hissələrdə qış mövsümü üçün tələb olunan ehtiyatların, eləcə də sərhəd zonalarındakı hərbi hissələrin yanacaqla təchizatı və ərzaq ehtiyatının yaradılması vaxtında başa çatdırılmalıdır. Əlahiddə Ümumqoşun Ordu Naxçıvan Qarnizonu üzrə qışa hazırlığın vəziyyətini araşdırıb Ali Məclisə məlumat verməlidir. Şəhər və rayon icra hakimiyyətləri, Ekologiya və Təbii Sərvətlər Nazirliyi payız mövsümündə yeni yaşıllıqların salınmasını təşkil etməlidir. Ekologiya və Təbii Sərvətlər Nazirliyi muxtar respublikanın bitki və heyvanat aləminin qış aylarında qorunması üçün müvafiq işlər görməli, qida ehtiyatı yaratmalı, Dövlət Baytarlıq Xidməti ilə birlikdə heyvanlar yaylaqdan qayıtdıqdan sonra obalarda təmizlik və dezinfeksiya tədbirlərinin aparılmasını diqqətdə saxlamalıdırlar.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tapşırılmışdır ki, istilik sistemi olmayan müəssisələrdə payız-qış mövsümü üçün tələb olunan yanacağın, digər mal-materialın bölgüsünü təsdiq etsin, eləcə də payız-qış mövsümünə hazırlıqla bağlı verilmiş tapşırıqların icrası barədə cari ilin oktyabr ayının sonunadək Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin.

Ali Məclisin Sədri qarşıya qoyulmuş vəzifələrin icrasında müşavirə iştirakçılarına uğurlar arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## "Azərbaycanın 7 möcüzəsi" layihəsinin əməkdaşları Naxçıvandan xoş təəssüratlarla ayrılıblar

Azərbaycanda ilk dəfə reallaşdırılan "Azərbaycanın 7 möcüzəsi" layihəsinin məqsədi cəmiyyətdə vətənpərvərlik hisslərini artırmaq, milli-mədəni və tarixi irsimizi qorumaq, Azərbaycan tarixinin mübahisəli və təhrif edilmiş faktlarını dövrün tarixi abidələri fonunda öyrənərək araşdırmaq, ölkəmizin ərazisində yerləşən tarixi, mədəni və təbii obyektlərin tanıdılmasına, qorunmasına və bərpa edilməsinə diqqəti yönəltməkdir. Həmçinin "Azərbaycanın 7 möcüzəsi" layihəsi ölkə daxilində və xaricində Azərbaycanın tarixi, mədəni və təbii incilərini tanıtmaqla yerli və xarici turizmin, eləcə də həmin ərazilərdəki infrastrukturun inkişafına təkan verməyi öz qarşısına məqsəd qoyub.

1-6 sentyabr tarixlərində layihə çərçivəsində Möminə xatın türbəsində, "Əshabi-Kəhf" Ziyarətgahı Dini-Mədəni Abidə Kompleksində, Naxçıvanqalada, Nuh Peyğəmbərin türbəsində, Duzdağ Fizioterapiya Mərkəzində və duz istehsalı sahəsində, Əlincəqalada, Haçadağda, Xanəgah Abidə Kompleksində, Qarabağlar Türbə Kompleksində, Gülüstan türbəsində, Gəmiqayada, Sədərək rayonunun Heydərabad qəsəbəsində, Cəlilkənd buzxanasında və Yengicə kəndindəki Şərq hamamında çəkilişlər aparılıb, tarixi və memarlıq abidələrimiz "Azərbaycanın 7 möcüzəsi" seçimlərinə daxil edilib.

**Layihənin yaradıcı direktoru Elnur Talıblı Naxçıvan televiziyasına müsahibəsində deyib:** "Layihənin ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanın 7 möcüzəsi xalqımız tərəfindən seçiləcəkdir. Seçilən həmin abidələr Azərbaycanın 7 möcüzəsi kimi tarixdə qalacaqdır. Bu layihə çərçivəsində bütün Naxçıvanı gəzdik və çəkilişlər apardıq. Müşahidə etdiyim bir neçə məsələni qeyd etmək istəyirəm. Naxçıvanda heyrətləndirici amillər çoxdur. Məsələn, qonaqpərvərlik, insanların gülərüzlüyü, xoşbəxt simaları. İndiki dövrdə bu çox önəmlidir. Çox az ölkələr var ki, orada küçədə gəzərkən xoşbəxt simalı insanlara rast gələsən. Lakin Naxçıvanda bu belədir.



Muxtar respublikada çəkiliş apararkən üç amil məni daha çox heyrətləndirdi. Birincisi, Naxçıvanda oturmuş bir ideologiya var. Yəni Naxçıvan Muxtar Respublikasında yaşayan hər bir Azərbaycan vətəndaşının ideoloji cəhətdən düşüncəsi tam formalaşıb. O bilir nə üçün yaşayır, necə yaşayır. Onun gələcəyi necə olacaq və bu gələcəkdən çox ümidlidir. O bilir ki, nəyə görə çalışır, nəyə görə zəhmət çəkir. Onun gələcəyə baxışı tam fərqlidir, öz gələcəyindən çox əmindir. Bu, çox önəmlidir.

İkincisi, Naxçıvanın iqtisadi sistemi, ən əsası isə idarəçilik sistemi mənim çox xoşuma gəldi. Çünki bilirsiniz, blokada şəraitində olan Naxçıvanın Azərbaycanın əsas ərazisi ilə heç bir quru əlaqəsi yoxdur. Lakin Naxçıvanda çox mükəmməl idarəetmə sistemi qurulub. Ucqar kəndlərə getdik, sərhədyanı zonalarda, hətta birbaşa sərhəddə olduq. Hara getdiksə, biz bu sistemin effektli işlədiyinin şahidi olduq.

Üçüncüsü və ən əsası Naxçıvanın gələcək inkişaf strategiyası var. Yəni Naxçıvanın bugünkü inkişafı xaotik deyil. Muxtar respublikada planlı və nizamlı şəkildə gələcəyin inkişaf strategiyası formalaşdırılıb. Naxçıvan bu strategiya üzərində elə iri addımlarla irəliləyir ki, bizə bəzən elə gəlir ki, bunun bəhrəsini yalnız bu gün görürük. Təbii ki, bu gün də görürük. Amma biz Naxçıvanın bugünkü inkişaf strategiyasının əsl bəhrəsini 50 il sonra gördükdə inana bilməyəcəyik. Yəni 10 il bundan əvvəlki Naxçıvanla bugünkü Naxçıvan arasında necə fərq varsa, 50 il sonra 10 qat fərqin şahidi olacağıq. Çünki bu gün onun çox gözəl təməli qoyulur.

Naxçıvanın inkişaf strategiyası möhkəm fundament üzərində həyata keçirilir. Məktəblər, uşaq bağçaları, ali təhsil ocaqları tikilir. Əsas güc insanların rahatlığına, təhsilinə, gənc nəslin formalaşdırılmasına sərf olunur. Layihəmiz "Azərbaycanın 7 möcüzəsi" adlanır. Lakin tam səmimi etiraf edirəm ki, Azərbaycanda 8-ci möcüzə layihəsi təqdim olunmalıdır və 8-ci möcüzə olaraq da Naxçıvanın idarəçilik sistemi nümunə kimi götürülməlidir. Çünki dünyanın bir çox ölkələrində olmuşam, lakin bu cür mükəmməl idarəçilik sistemi görməmişəm. Belə düşünürəm ki, bir çox ölkələrdə Naxçıvanın idarəçilik sistemi dərslik kimi öyrənilməlidir. Ən əsası isə təbliğ olunmalıdır ki, belə bir idarəetmə sistemi var və bu, sırf Naxçıvanda tətbiq olunan idarəçilik sistemidir".

**Layihənin baş prodüseri İslam Əhmədovun fikirləri də maraqlıdır:** "Sentyabrın 1-dən Naxçıvanı qarış-qarış gəzdik. Bütün abidələrlə tanış olduq. Abidələri tanıyırdıq, lakin bu dəfə abidələrin tarixi əhəmiyyəti ilə yanaşı, həm də möcüzələrini öyrəndik. Çox yaxşı təəssüratlarımız var. Layihə boyunca da onları tamaşaçılarımıza təqdim edəcəyik. *Yeddi.az* saytına daxil olub onlarla tanış ola bilərsiniz. Üstəlik, saytda "Öz möcüzəni əlavə et" bölməsi də var ki, hər bir şəxs möcüzə hesab etdiyi bir abidəni əlavə edə bilər. Bundan başqa, *yeddi.az* saytında hər kəs 7 möcüzəyə səs verə bilər. İlk 25-likdə olan abidə finala vəsiqə alacaq və onların hər biri haqqında film və verilişlər hazırlanıb geniş



ictimaiyyətə təqdim olunacaqdır.

İlk dəfədir, Naxçıvanda oluram. Naxçıvandakı inkişafın, qonaqpərvərliyin, qədimliklə müasirliyin vəhdətini bu dərəcədə təsəvvür etmirdim. Muxtar respublikanın hər bir guşəsində bir nizam-intizam, səliqə-sahman var. Əvvəllər düşünürdüm ki, Naxçıvana nə vaxtsa imkan olsa, ailəmlə birlikdə gedərəm. Amma gəlib gördükdən sonra qəti olaraq qərar verdim ki, bu yaxınlarda ailəmlə birlikdə yenidən Naxçıvana qayıdacağam. Mənə məlumat verdilər ki, Naxçıvanda müxtəlif festivallar keçirilir. "Ailə təsərrüfatları" və "Bal" festivalları xüsusilə diqqətimi çəkdi. Ailəmlə birlikdə mütləq həmin festivalların birində iştirak edəcəyəm. İstəyirəm ailəm də əyani surətdə bu gözəlliyin, nizamın, səliqə-sahmanın şahidi olsun.

Naxçıvanda tarixi abidələr çoxdur və ən qürurverici cəhət ondan ibarətdir ki, abidələr yüksək səviyyədə qorunub saxlanılır, zamanında restavrasiya edilir. Səfər müddətində tarixə sahib çıxmaq, abidələri qorumaq baxımından da bir Naxçıvan nümunəsinə şahidlik etdik. Naxçıvanı Azərbaycan tarixinin beşiyi kimi tanıyırdıqsa, bu abidələri, eləcə də Gəmiqayanı gördükdən sonra, əminliklə deyə bilərik ki, Naxçıvan dünya tarixinin beşiyidir".

Qeyd edək ki, foto və videogörüntüləri götürülən abidələr haqqında məlumatlar *yeddi.az* saytına yerləşdirilir. Sözügedən saytda "Azərbaycanın 7 möcüzəsi" layihəsinin səsverməsi keçirilir. Səsvermə oktyabrın 18-də başa çatacaqdır.

## ABŞ-ın Azərbaycandakı səfirliyinin nümayəndələri Naxçıvanın tarixi-mədəni abidələri və mədəniyyət müəssisələri ilə tanış olublar





***Sentyabrın 9-da Amerika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı Səfirliyinin İqtisadi Əməkdaşlıq Şöbəsinin nümayəndələri Naxçıvan Muxtar Respublikasına səfərə gəliblər.***

Qonaqlar əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, Heydər Əliyev Muzeyində dahi şəxsiyyətin həyatı və çoxşaxəli dövlətçilik fəaliyyəti ilə bağlı eksponatlarla tanış olublar.

Naxçıvan Dövlət Xalça Muzeyinə gələn nümayəndələrə məlumat verilib ki, son illər muxtar respublikada xalçaçılıq sənətinin inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. 1998-ci ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Xalça Muzeyi 2010-cu ildə yeni bina ilə təmin edilib, 2013-cü ildə isə muzeyin ekspozisiyası yenidən qurulub. Hazırda muzeydə 3400-dən çox eksponat vardır.

Daha sonra qonaqlar "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olublar. Xan sarayında məlumat verilib ki, bu muzey Azərbaycanın milli dövlətçilik tarixində Naxçıvan xanlığının tutduğu xüsusi mövqeyi nəzərə alınaraq yaradılıb. Muzeyin 9 ekspozisiya zalı vardır. Burada 430-a yaxın eksponat nümayiş etdirilir.

Milli memarlığımızın möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən olan Möminə xatın türbəsi ilə tanışlıq zamanı diqqətə çatdırılıb ki, bu abidə 1186-cı ildə ucaldılıb. Açıq səma altında nümayiş etdirilən daş abidələr haqqında da qonaqlara ətraflı məlumat verilib.

"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanışlıq zamanı qonaqların nəzərinə çatdırılıb ki, abidə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında" 2013-cü il 5 iyun tarixli Sərəncamına əsasən bərpa edilib. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi hazırda muxtar respublikada mədəni-kütləvi tədbirlərin keçirildiyi mərkəzə çevrilib.

Nümayəndə heyətinin muxtar respublikamıza səfəri davam edir.

**Tural AĞAYEV**

## Növbəti test imtahanları başa çatıb



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrinə işə qəbul üçün 21 iyun 2019-cu il tarixdə elan edilmiş müsabiqənin test imtahanları 14 avqust-4 sentyabr tarixlərdə keçirilib.

Müsabiqəyə 302 vakant vəzifə çıxarılıb, 199 vəzifənin tutulması üçün 613 namizəd müraciət edib. Həmin şəxslərin dövlət nümunəli təhsil sənədlərinin hüquqiliyi yoxlanılıb və 599 namizəd imtahana buraxılıb. Test imtahanlarında 576 namizəd iştirak edib, onlardan 235-i keçid balını toplayıb.

Qanunvericiliyə əsasən stimullaşdırıcı tədbirlər tətbiq olunan müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 60 faizini (48 bal), digər müəssisələrə işə qəbul üçün test tapşırıqlarının 80 faizini (64 bal), təsviri incəsənət, musiqi və fiziki tərbiyə fənləri üzrə test tapşırıqlarının 50 faizini (40 bal) düzgün cavablandıran namizədlər keçid balını toplamış hesab edilirlər.

Vakant vəzifənin tutulması üçün müraciət etmiş namizədlər arasında keçid balını yığmaqla ən yüksək bal toplamış şəxslər müvafiq vəzifələrə təyin olunacaqlar. Həmin namizədlərin sənədləri müvafiq vəzifələrə təyin olunmaq üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinə göndərilib.

Vakant vəzifələr üzrə aparılan test imtahanları elektron proqram təminatı vasitəsilə keçirilib. Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanların videoçəkilişi aparılıb. Test imtahanı bitdikdən dərhal sonra iştirakçılara nəticəyə dair arayış təqdim edilib. Nəticələr komissiyanın internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilib.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

İmadəddin Nəsimi – 650

## Nəsimi yaradıcılığının tərbiyəvi ideya-bədii xüsusiyyətləri

*Böyük filosof-şair İmadəddin Nəsimi Azərbaycan ədəbiyyatı tarixində bədii-fəlsəfi şeirin özülünü qoymuş, bədii söz sənətimizi forma və məzmunca zənginləşdirmiş söz ustadıdır. Nəsimi yaradıcılığının nəinki Azərbaycan ədəbi mühitinin formalaşmasına, eləcə də ümumbəşəri dəyərləri, insanın fövqəlbəşəri varlıq olmasını tərənnüm etməklə dünya ədəbiyyatına böyük təsiri olmuşdur. Çünki Nəsimi bütün bəşəriyyəti öz yaradıcılığı ilə əsərlərində ifadə etməyi bacaran dahi şair və mütəfəkkirdir. 2017-ci ilin may ayında Parisdə UNESCO-nun baş qərargahında İmadəddin Nəsiminin vəfatının 600-cü ildönümü ilə əlaqədar təntənəli tədbirin keçirilməsi böyük şairin yaradıcılığının ümumbəşəri dəyərinin, onun bəşəriyyət üçün gərəkli şəxsiyyət olmasının ifadəsidir.*



Nəsimi insanların qəlbini, onların daxili aləmini ilahi şeiriyyətlə, özünəməxsus zəngin söz yaradıcılığı ilə tərənnüm edən ustaddır. Şeirlərini təhlil edərkən onun bütün yaradıcılığı boyu gələcək nəsillərə verdiyi töhfələr göz önündə dayanır. Böyük şairin insanlıq, kamil şəxsiyyət haqqında təsəvvürləri olduqca yüksəkdir. "Bulunmaz" rədifli qəzəlində mərdlik, igidlik, xalqa əməllə xidmət etmək kimi ideyalar aşılanır:

*Hər bihünər insafı yox, uş mənsəbi tutdu,*
*Sahib hünərə mənsəbü idrar bulunmaz,*
*Xəlqin əməli azdı, könül yıxıcı ögüş,*
*Bir xəstə könül yapıcı memar bulunmaz.*

Nəsimi belə hesab edirdi ki, nəfsi öldürmək kamil insana məxsus ən böyük mənəvi keyfiyyətdir. "Nəfsə qalib gəlmək Xeybər qalasını almaqdan çətindir". Nəfs düşgünü olan insan şüursuz canlılardan seçilmir. Eşq yolunu tutan isə ruhuna qida verən, öz könlündə ilahi nuru gəzdirən, öz idealını arayıb-axtaran insandır. İkilik pərdəsini aradan qaldıran insan gizli sirləri duya bilər, bu isə haqqa qovuşmaq deməkdir.

Nəsimi öz şəxsində insanın bəşəri keyfiyyətlərini açır, onu mənalandırır, poetik səviyyəyə yüksəldir. Şairə görə "mən" həyatdır, elə bir gözəllikdir ki, əgər özünü dərk edərsə, ülvi bir varlığa çevrilib ilahiləşir. Onun fikrincə, insan bütöv bir aləmdir, insan kainatdır. Nəsimi əsərlərində insanın ən gözəl xüsusiyyəti özünü dərk etməsidir. Şairin "Bəhrüləsrar" adlı fəlsəfi qəsidəsi bu baxımdan, xüsusilə təqdirəlayiqdir. Bu əsər dərin fəlsəfi məzmuna malik olması ilə bərabər, həm də böyük tərbiyəvi əhəmiyyətli nəsihət və fikirlərlə zəngindir. Əsərdə şair insanı həyat və ölüm haqqında düşünməyə, Xəyyamanə bir ruh ilə dünyanın başdan-başa acı və şirinlikləri ilə dolu olduğunu dərk etməyə çağırır və göstərir ki, bütün həyatını ancaq sərvət qazanmaq uğrunda sərf edən insan əzab və əziyyətdən başqa heç bir şeyə sahib ola bilməz, insanın əsl zinəti, yalnız onun mərifət və əxlaqıdır.

*Bir ovuc tozdur küləklər qarşısında bu bədən,*
*Ömrümüz qor tək ərir hər an Günəşdən, şölədən.*
*İnsan üçün mərifətdən özgə yoxdur bir bəzək,*
*Aqil insan zər üçün öz ömrünü verməz hədər.*

Nəsimi yaradıcılığı böyük tərbiyəvi əhəmiyyətə malik olmaqla bu gün də kamil insan formulunu misralarla oxucuya aşılayır. Bu kamillik, insan qüdrəti heyranedici bir himn kimi səslənir. Və bu gözəllik, bu qüdrət dünyada bütün insanlara deyil, yalnız özünü dərk etmiş kamil insanlara xasdır. Şairin əsərlərindəki kamil insan yetişdirmək, insanlardakı bacarıqları üzə çıxarmaq və onlara istiqamət vermək kimi ideyalar müasir pedaqoji fikrin əsas konsepsiyaları ilə uzlaşır.

Nəsimi böyük sələfi Nizami Gəncəvidən sonra ədəbiyyatımızda humanizm, insansevərlik ideyalarının alovlu təbliğatçılarından, carçılarından biri kimi tanınır. Dahi şairin sənətindəki dərin humanizm ideyaları əxlaq tərbiyəsinin poetik təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. Onun dərin humanizmi qlobalbəşəri mahiyyət daşıyırsa, yüksək poetik sənətkarlığı, dilinin şirinliyi və axıcılığı, heyrətamiz poetik ritmi xalqının estetik zövqünün kamilləşməsində önəmli rol oynayır. Xüsusən xalq dilinin üslub-qrammatik imkanlarından yaradıcı şəkildə bəhrələnməkdə Nəsimi şeiri misilsizdir. Bu poetik nümunələrdə müəllifin fikrini rəqibinə cəsarətlə sübut etmək bacarığı var.

*Rəqib məndən sorur: nəndir sənin yar?*
*Rəfiqimdir, həbibimdir – nəm olsun!*

Rəqibinin istehzalı, kinayəli, tikanlı sualına bu cür sərrast, səlis və şirin cavabı ancaq Nəsiminin lirik qəhrəmanı verə bilərdi.

Şairin yaradıcılığında dini-fəlsəfi əsərlərlə yanaşı, dünyəvi şeirlər də vardır. Onun bu şeirlərində səmimiyyət və təbiilik daha qabarıqdır, hər şeiri xəlqiliyi, dil-ifadə və üslub gözəlliyi ilə fərqlənir. Şair burada insan səadətini, onun könül sərbəstliyini və azadlığını irəli çəkir. Pedaqoji tərbiyədəki doğruçulluq, söz bütövlüyü, yalansız, haqqı tanıyan kamil şəxsiyyət anlayışını Nəsimi belə ifadə edir:

*Qanı bir əhdi peyman bütün yar,*
*Qanı bir qövlü gerçək, doğru dildir.*
*Qanı, haqqı bilən bir gerçək ər kim,*
*Ola doğru anın dilində göftar?*

Yaradıcılığı Yaxın və Orta Şərqdə geniş yayılmış Nəsimi əsərlərini üç dildə – ərəb, fars və Azərbaycan dillərində yazan ilk böyük söz ustadıdır. O, bu dillərdə divanlarını ərsəyə gətirib. Müxtəlif dillərdə yazıb-yaratmaq qabiliyyəti şairə öz mütərəqqi fikirlərini geniş təbliğ etmək imkanı verib, dərinməzmunlu fəlsəfi şeirləri ilə xalqlar arasında mədəni əlaqələrin və ədəbi mühitin inkişafında mühüm rol oynayıb.




Nəsimi irsinin qorunması və təbliğinə dövlət səviyyəsində çox böyük diqqət yetirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 2018-ci il 15 noyabr tarixli Sərəncamı görkəmli şairin Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus rola malik olduğunun bir daha təsdiq edir. Sərəncamda deyilir: *"Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etmişdir. Anadilli şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində unudulmaz şairin misilsiz xidmətləri vardır. Nəsiminin mənbəyini xalq ruhundan almış parlaq üslubu orta əsrlər Azərbaycan dilinin məna imkanlarını bütün dolğunluğu və rəngarəngliyi ilə əks etdirir. Sənətkarın yaradıcılığı bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına qüvvətli təsir göstərmişdir".*

Ölkə Prezidentinin 2019-cu il 11 yanvar tarixli Sərəncamı ilə 2019-cu ilin görkəmli Azərbaycan şairi və mütəfəkkiri, Azərbaycan dilini ədəbi-bədii dil səviyyəsinə yüksəldən böyük ustad İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar "Nəsimi ili" elan edilməsi şairə dövlət səviyyəsində verilən dəyərin, hörmət və ehtiramın ən yüksək ifadəsidir. Eyni zamanda bu sərəncam Azərbaycan mədəniyyətinin, zəngin tarixi-mədəni irsimizin təbliğinə də çox böyük töhfədir.

**Ruhəngiz ƏLİYEVA**
***Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşı***

## Müəllimlər üçün təlim kurslarına başlanılıb

Müəllimin səriştəli bir mütəxəssis kimi yetişməsində ixtisasartırma kurslarının, treninqlərin, elmi-praktik konfrans və seminarların müstəsna rolu vardır. Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən müəllimlərin yaradıcılıq potensialının yüksəldilməsi, təlim prosesində onların əyanilikdən, o cümlədən elektron lövhələrdən, laboratoriyalardan daha da səmərəli istifadələrini təmin etmək, müəllimlər arasında fikir, təcrübə və ideya mübadiləsinə şərait yaratmaq məqsədilə təlim kursları keçirilir.

Bu tədbirlərin davamı olaraq dünən Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə ingilis dili müəllimləri üçün "İngilis dili fənninin tədrisində interaktiv təlim, üsul və vasitələrindən istifadənin təkmilləşdirilməsi" mövzusunda seminara start verilib.

Seminarın keçirilməsində məqsəd buraxılış siniflərində ingilis dili fənnini tədris edəcək müəllimlərə dinləmə mətnlərinin tədrisinin, yeni təlim metodları və təlim texnologiyalarından istifadənin tətbiqinin təkmilləşdirilməsidir.

Seminara Naxçıvan şəhəri üzrə 58, Babək rayonu üzrə 50, Heydər Əliyev adına Hərbi Liseydən 9 olmaqla, ümumilikdə, 117 ingilis dili müəllimi cəlb edilib. Seminar dərsliklərin, dərs vəsaitlərinin və digər tədris vasitələrinin elmi-metodik monitorinq qrupunun eksperti, "İngilis dili müəllimlərinin peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsi və sertifikasiyası layihəsi" çərçivəsində "Gələcək üçün təhsil" proqramı üzrə təlimçi Pərvanə Talıbova tərəfindən aparılır.

Təlim kurslarında tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına, ayrı-ayrı fənlər üzrə çətin mövzular ətrafında təhlillərin təşkilinə dair qabaqcıl təcrübənin öyrənilməsi həyata keçiriləcək, müəllimlərin bacarıqlarının artırılmasına köməklik göstəriləcəkdir.

Müəllimlər seminarda qazandıqları təcrübələri ilə fəaliyyətlərini müasir tələblərə uyğun daha da təkmilləşdirəcək, muxtar respublikamızın ümumtəhsil məktəblərində İngilis dilinin yüksək səviyyədə tədrisi təmin olunacaq.

Qeyd edək ki, seminar hər gün 3 saat olmaqla, sentyabrın 13-dək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*"**Təhsil millətin gələcəyidir**", – deyən ümummilli lider Heydər Əliyevin bu sahədə müəyyən etdiyi siyasət ölkəmizin ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda da uğurla davam etdirilir, gənc nəslin hərtərəfli təhsil alması, peşə sahibi olması və vətənpərvər ruhda böyüməsi üçün ardıcıl tədbirlər görülür. Təhsil müəssisələrinin müasir tələblər səviyyəsində qurulması, təhsildə istifadə edilən qabaqcıl texnologiyalar nəticəsində tədrisin keyfiyyəti ildən-ilə daha da yüksəlir, hər il ali məktəbə qəbul olunanların və yüksək bal toplayanların sayı artır. Bu il də muxtar respublikada 281 məzun ali məktəblərə qəbul imtahanlarında 500-700 arasında bal toplayıb. Sevindirici haldır ki, ölkə Prezidentinin 2019-cu il 9 sentyabr tarixli Sərəncamı ilə muxtar respublikanın ümumtəhsil məktəblərinin 4 məzunu da Prezident təqaüdünə layiq görülüb.*

Gəncliyimiz, gələcəyimiz

## Təhsildə qazanılan uğur gələcək nailiyyətlərin açarıdır



Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə avqustun 20-də keçirilən görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Qloballaşan dünyada yaşadığımız innovativ və dayanıqlı inkişaf dövrü yeni nəsildən daha mükəmməl təhsil almağı, elmi biliklərə və peşələrə dərindən yiyələnməyi tələb edir... Siz, Vətənimizin və xalqımızın inkişafı naminə yaxşı təhsil almalı, seçdiyiniz ixtisası mükəmməl öyrənməli, öz peşənizin sahibinə çevrilməlisiniz. Hər biriniz müstəqil Azərbaycanın gələcəyi üçün məsuliyyət daşımalı, ana dilini və Vətən tarixini dərindən öyrənməli, milli dəyərlərimizə sahib çıxmalı, mənsub olduğunuz xalqın layiqli vətəndaşı olmalısınız".***

Bu il muxtar respublikada ümumtəhsil məktəblərini bitirərək qəbul imtahanlarında ixtisas qrupları üzrə ən yüksək nəticələr göstərdiyinə görə Prezident təqaüdünə layiq görülən tələbələrimizdən biri də Nicat İsmayılovdur. O, 688 balla Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) tədrisi ingilis dilində aparılan Maliyyə ixtisasına qəbul olunub. Biz də bu münasibətlə Nicatı təbrik etmək və onunla həmsöhbət olmaq qərarına gəldik:

***– Nicat, əvvəlcə səni Prezident təqaüdünə layiq görülməyin münasibətilə ürəkdən təbrik edirəm. İstərdim ki, əvvəlcə özün haqqında məlumat verəsən.***

– Çox sağ olun. 2002-ci ilin oktyabr ayında Bakı şəhərinin Səbail rayonunda anadan olmuşam. 2008-ci ildə Naxçıvan şəhər Afiyəddin Cəlilov adına 12 nömrəli tam orta məktəbin 1-ci sinfinə daxil olub, bu il həmin məktəbi əla qiymətlərlə başa vurmuşam. Oxuduğum müddətdə dəqiq elmlərə marağım böyük olub. Riyaziyyat fənni üzrə keçirilən olimpiadalarda iştirak edib müxtəlif nəticələr göstərmişəm. Bu il keçirilən respublika fənn olimpiadasında riyaziyyat fənni üzrə uğurlu nəticə əldə edib "Qızıl" medala layiq görülmüşəm.

***– Məktəbdə oxuduğun müddətdə daha hansı uğurları əldə etmisən?***

– III sinifdə oxuyarkən sınaq imtahanında I yeri qazandığım üçün fəxri fərmanla təltif edilmişəm. Məktəbdə keçirilən sınaq imtahanlarında bir neçə dəfə maksimum balı toplamağa müvəffəq olmuşam. Müxtəlif intellektual yarışmalarda dəfələrlə iştirak edib, diplomlarla təltif edilmişəm. Məktəbdə qazandığım uğurlara, ictimai işlərdə fəallığıma və nümunəvi davranışımla fərqləndiyimə görə mənə "İlin ən yaxşı şagirdi" adı verilib. Cari ildə "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyası çərçivəsində keçirilən "Nə? Harada? Nə zaman?" bilik yarışında bürünc medalla təltif edilmişəm. "İstedad-XXI əsr" hazırlıq kurslarında keçirilən sınaq imtahanlarında yüksək nəticələr əldə etdiyimə görə 2 fevral 2018-ci ildə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Gənclər Fondu tərəfindən diploma təltif olunmuşam.

***– Qəbul imtahanında göstərdiyin uğura və Prezident təqaüdünə layiq görülməyinə görə kimə minnətdarlıq edərdin?***

– II qrup üzrə keçirilən qəbul imtahanında Naxçıvan Muxtar Respublikası üzrə birinci, Azərbaycan Respublikası üzrə ikinci ən yüksək nəticəni göstərmişəm. Bunun üçün həmişə mənə dəstək olan valideynlərim və müəllimlərimə minnətdaram. Biliklərə yiyələnməyimdə və formalaşmağımda daim onların qayğısını görmüşəm. Bunun üçün hər zaman onlara borcluyam.

***– Nicat, ali məktəblər arasında niyə məhz UNEC-i seçdin?***

– Hələ IX sinifdə oxuyarkən öz seçimimi etmişdim. Azərbaycan Dövlət İqtisad Universiteti iqtisad elmini öyrədən ali təhsil ocağı kimi həm də bir sıra ixtisasları ingilis dilində tədris edən universitetdir. Tələbələr üçün yaradılan şəraitlə, tədris prosesi və kadr hazırlığı ilə də tanış olduqdan sonra seçimimin UNEC olduğunu təsdiq etdim.

***– Seçdiyin ixtisas nə ilə səni özünə cəlb etdi?***

– Maliyyə aktual bir sahədir və gələcək perspektivini nəzərə alaraq bu sahəni seçməyə qərar verdim.

***– Boş vaxtlarında nə ilə məşğul olmağı xoşlayırsan?***

– Bədii kitablar oxumağı çox sevirəm. Xarici və yerli ədəbiyyat nümunələrini tez-tez oxuyuram. Çingiz Abdullayev, Viktor Hüqo daha çox müraciət etdiyim yazarlar içərisindədirlər. "Oxunması zəruri olan kitablar Siyahısı"na daxil edilən kitablardan bir neçəsini oxuyub bitirmişəm. Bəzən ruhumu dincəldən musiqilərə də qulaq asmağı sevirəm.

***– Gələcək planların barədə nə deyə bilərsən?***

– Təhsil alacağım universitetdə ixtisasım üzrə bilikli mütəxəssis kimi yetişmək və öz sahəm üzrə yerli və qlobal əmək bazarında ehtiyac duyulan maliyyəçi olmaq istərdim.

***– Səncə, bir insanın uğur əldə etməsi üçün ona nə lazımdır?***

– Deyərdim ki, təhsildə qazanılan uğur gələcək nailiyyətlər açarıdır. Düşünürəm ki, uğur əldə etmək üçün aydın bir məqsədin olmalı, çalışmalı və ən əsası getdiyin yolda özünə inanmalısan.

Həyatımın ən yaddaqalan hadisəsi isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yüksək bal toplamış tələbələrlə görüşündə iştirak etməyim oldu. Mən xüsusi vurğulamaq istəyirəm ki, bu gün muxtar respublikada gənclərin təhsil alması üçün hər cür şərait yaradılıb. Gənclər onların inkişafına göstərilən qayğıdan səmərəli istifadə etməli, Vətəninə, xalqına layiq olmağa çalışmalıdırlar. Prezident təqaüdünə layiq görülməyim isə tələbə məsuliyyətimi ikiqat artırır. Bu etimadı doğrultmağa çalışacağam.

***– Nicat, gələcək abituriyentlərə nə məsləhət görərdin?***

– Abituriyentlərə demək istərdim ki, həyatın 11 illik taleyüklü mərhələsində peşman olmamaq üçün daha çox çalışın. Ən əsası isə yaşadığınız həyata inamla və məsuliyyətlə yanaşın.

***– Maraqlı müsahibə üçün sağ ol.***

**Güntac ŞAHMƏMMƏDLİ**

## Başqalarının həyatı naminə öz qanlarını bağışlayanlar insanpərvərlik nümunəsi göstərmiş olurlar

*Qədim zamanlardan insanlar qanı əsl həyat mənbəyi kimi dərk edib, bu möcüzəli mayenin gücünə, qüdrətinə inanıblar. Məşhur yunan alimləri öz dövrlərində qanvermə metodundan bir çox xəstəliyin müalicəsində istifadə ediblər. Müasir tibb elmi də sübut edir ki, qanvermə qüvvətli müalicəvi vasitə kimi orqanizmin bütün həyati fəaliyyətini stimullaşdırır. Nəticədə, insanın immun sistemi möhkəmlənir, yeni qan hüceyrələri yaranır, maddələr mübadiləsi yaxşılaşır, toxumaların qidalanması qaydasına düşür, sinir sisteminin fəaliyyəti normallaşır. Bu barədə Naxçıvan Muxtar Respublika Xəstəxanasının Mərkəzi Qan Bankının şöbə müdiri, həkim-hematoloq Məmmədəli Həsənovla həmsöhbət oluruq.*



O deyir ki, qədim zamanlardan bu günə qədər təbabətdə qan köçürülməsindən geniş istifadə olunur. Müasir təbabətdə bir çox sınanmış müalicə vasitələri olmasına baxmayaraq, ən ağır vəziyyətdə belə, yenə də xəstələrin həyatını xilas etmək üçün qan və qan komponentlərinə ciddi ehtiyac duyulur. Müxtəlif travmalar və yaralanmalar, böyük cərrahi əməliyyatlar, doğuş vaxtı qanitirmələr, qanın irsi və qazanılmış xəstəlikləri, onkoloji problemlər təmənnasız qan donorlarının köməyini zəruri edir. Qanın eritrosit kütləsindən talassemiya xəstəliyində, müxtəlif mənşəli anemiyalarda, plazmasından isə hemofiliya, DVS sindromunda, yanıqlarda, qanaxmalarda, trombosit kütləsindən isə qanın trombosit azlığı ilə bağlı irsi və qazanılmış xəstəliklərinin müalicəsində istifadə edilir.

Hematoloq onu da vurğulayır ki, insan orqanizmində, ümumilikdə, beş-altı litr qan dövr edir. 18-65 yaş arası hər bir sağlam şəxs il ərzində iki-üç dəfə qan verərsə, həm öz sağlamlığının profilaktikasını gücləndirər, həm də xeyirxah, humanist əməl sahibi kimi savab qazanmış olar. Qan vermək hər bir sağlam insanın həm də mənəvi borcudur.

Qan vermək insanda qan hüceyrələrinin təzələnməsinə, qandakı yağın miqdarının azalmasına, baş ağrıları, stress, yüksək qan təzyiqi, yorğunluq kimi sağlamlıqla bağlı problemlərin azalmasına yaxşı təsir edir. Qan verən insanda ürək xəstəliklərinin baş verməsi riski 90 faiz aşağı düşür.

Qan verən insanın bilməsi vacib olan şərtlər var. Bu barədə danışan həkim onu da deyir ki, kişilərdə ən tez 2 ayda bir, qadınlarda isə ən tez 3 ayda bir dəfə – ildə 4 dəfədən çox olmamaq şərtilə çəkisi 50 kiloqramdan çox olan hər kəs qan verə bilər. Hüceyrələrin yenilənməsi prosesi isə 2 ayadək başa çatır. Bu şərtlər daxilində qan verməyin insan orqanizmi üçün nəinki zərərli, əksinə, bir çox xeyirli tərəfləri vardır.

Hər dəfə qan verilməzdən əvvəl donorların qan analizi aparılır. Anemiya, qanazlığı olan insanlar, əlbəttə, donor ola bilməzlər. Anemiya qan testləri vasitəsilə müəyyən olunur. Qan vermək üçün əsas meyar hemoqlobinin dəyərləndirilməsidir. Bəzi dərmanları qəbul etdiyimiz müddətdə qan vermək olmaz. Qan verməzdən öncə vacib olmadığı halda dərman qəbul edilməməlidir.

Həkim onu da diqqətimizə çatdırır ki, hepatit B, C, QİÇS, allergiya-astma xəstələri heç bir zaman qan verə bilməzlər. Maliyariya xəstəliyinə düçar olanlar müalicə olunandan 3 il, vərəmə yoluxmuş insanlar müalicə olunandan 5 il, ağır cərrahi əməliyyatlar keçirən insanlar yalnız 6 ay sonra qan verə bilərlər. Qanaxmaya meyli olanlar, bronxit, xroniki epilepsiya xəstələri qan verə bilməzlər.

Şəkərli diabet xəstələri qanda şəkərin miqdarı normal olan halda qan verə bilər. Allergiyası olanlar isə sadəcə, allergiyalı olduqları zamanda qan verə bilməzlər. Doğum və ya hamiləliyin sona çatdırılmasından 6 həftə sonra qan verilə bilər.

Bu gün muxtar respublikanın Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Naxçıvanın 20-dən çox tibb müəssisəsi və məscidlərində aşura günü ilə bağlı qanvermə aksiyası keçirilir. Amma qan verərək xeyirxah bir iş görmək təkcə bu gün üçün keçərli deyil. Naxçıvan Muxtar Respublika Xəstəxanasının Mərkəzi Qan Bankında, o cümlədən muxtar respublikamızın bütün səhiyyə ocaqlarında günün hər saatında qan bağışlayaraq onlarla xəstənin həyata qayıtmasına köməklik göstərmək olar.

Bir vaxtlar dini fanatizm əlaməti kimi aşura günündə cahilliklə baş yarır, bilək kəsməklə qan axıdır və bunun savab olduğunu düşünürdük. Artıq uzun illərdir, müstəqil bir dövlət olaraq heç bir qadağaya rast gəlmədən İslam dininin gözəlliklərini dərk edir və o zamanlardakı kimi heç kimə faydası olmayan əməllərin yerini qanvermə aksiyasında iştirak etmək kimi savab işimizlə əvəz edirik.

Heç kəs arxayınlıqla deyə bilməz ki, nə vaxtsa ona qan gərək olmayacaq. Qana ehtiyacı olanları xilas etmək üçün böyük ürəyə sahib insanlar könüllü donor kimi qan verirlər. Başqalarının həyatı naminə öz qanlarını bağışlayanlar isə həmişə xeyirxahlıq, humanizm və insanpərvərlik nümunəsi göstərmiş olurlar.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Humanitar aksiya



Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılan imkanlar hesabına əhalinin tibbi müayinəsini və cərrahi əməliyyatları uğurla davam etdirirlər.

Həmin tədbirlər çərçivəsində ötən şənbə günü Naxçıvan Muxtar Respublika Xəstəxanasının 16 nəfərdən ibarət həkim briqadası tərəfindən Şərur rayonunun kəndlərində müayinələr aparılıb. Xəstəxanaya gələ bilməyən ahıl və yataqda olan 16 xəstəyə evlərində tibbi xidmət göstərilib. Gün ərzində laborator təhlillər aparılıb, ultrasəs müayinəsi keçirilib. Xəstələrə ilkin tibbi yardım üçün istifadə olunan bütün dərmanlar, arterial təzyiqin ölçülməsi üçün cihazlar verilib.

Tibbi aksiyada oftalmoloq, uroloq, endokrinoloq, nevropatoloq, LOR, cərrah, radioloq, travmatoloq və digər ixtisas həkimləri iştirak ediblər.

Ahıl və yataq xəstələrindən Sona Seyidova, Qurban Qasımov, Nəsimi Nəcəfov, Qüdrət Məmmədov, Məmmədrza Ələkbərov, Məsmə Süleymanova başqa yerlərə getmədən ev şəraitində müayinə olunduqlarına görə minnətdarlıq edib, bütün bunları əhalinin sağlamlığının qorunmasına yönəldilmiş təşəbbüs kimi dəyərləndiriblər.

Qeyd edək ki, humanitar tibbi aksiya muxtar respublikanın digər rayonlarında da həyata keçiriləcək.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## AMEA Naxçıvan Bölməsi elmi-tədqiqat müəssisələrinin şöbə və laboratoriyalarında aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə elan edir

***Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu***

*Etnoqrafiya şöbəsi*

Şöbə müdiri – 1 ştat vahidi

*Antik və orta əsrlər arxeologiyası şöbəsi*

Şöbə müdiri – 1 ştat vahidi

***"Xalçaşünaslıq" elmi-tədqiqat qrupunun rəhbəri, aparıcı elmi işçi***

Qrup rəhbəri– 1 ştat vahidi

***İncəsənət, Dil və Ədəbiyyat İnstitutu***

*Dilçilik şöbəsi*

Aparıcı elmi işçi – 1 ştat vahidi

*Folklorşünaslıq şöbəsi*

Böyük elmi işçi – 1 ştat vahidi

***Bioresurslar İnstitutu***

*Dənli, taxıl, paxlalı və texniki bitkilər laboratoriyası*

Laboratoriya rəhbəri – 1 ştat vahidi

Böyük elmi işçi – 1 ştat vahidi

*Zooloji tədqiqatlar şöbəsi*

Aparıcı elmi işçi – 1 ştat vahidi

*Bitki sistematikası şöbəsi*

Böyük elmi işçi – 1 ştat vahidi

***Təbii Ehtiyatlar İnstitutu***

*Mineral xammalın kimyası və texnologiyası laboratoriyası*

Laboratoriya rəhbəri – 1 ştat vahidi

*Sorbsiya prosesləri laboratoriyası*

Laboratoriya rəhbəri – 1 ştat vahidi

*Coğrafiya şöbəsi*

Elmi işçi – 1 ştat vahidi

Müsabiqədə yerlərə uyğun olaraq elmlər doktorları, fəlsəfə doktorları iştirak edə bilərlər.

Sənədlər müsabiqənin tələblərinə uyğun olaraq elan dərc edilən gündən etibarən bir ay müddətində aşağıdakı ünvana göndərilməlidir.

***Az 7000, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 76. AMEA Naxçıvan Bölməsi Təhsil və Kadrlar Şöbəsi Telefon: 544-65-97; 545-16-80***

*Naxçıvan Futbol Federasiyası (NFF) tərəfindən 13 və 14 yaşlı futbolçuların beynəlxalq turnirlər və elit məşq layihəsi üçün seleksiya xarakterli turnir keçirilib. Turnirin keçirilməsində məqsəd uşaq və yeniyetmələr arasında futbolun təbliği və kütləviliyi, futbolçuların ustalığının yüksəldilməsi, uşaq və yeniyetmə futbolçuların klublarda hazırlanması və yığma komandalara cəlb edilməsi, komandaların mövsümün başlanğıcı üçün heyətlərinin komplektləşdirilməsindən ibarət olub.*

## Futbol Federasiyası daha bir turnir keçirib



Reqlamentə əsasən turnir iki zonada keçirilib. Mərkəzi zona üzrə pley-off mərhələsində "Araz-Naxçıvan", "Naxçıvan", "Culfa" və "Şahbuz", qərb zonası üzrə isə "Arpaçay", "Şərur", "Kəngərli" və "Sədərək" komandaları mübarizə aparıblar.

Turnirin oyunlarını NFF-nin Hakimlər və Hakim-İnspektorlar Komitəsi tərəfindən təyin edilmiş hakimlər briqadaları idarə edib və hakimlik FİFA qaydaları əsasında həyata keçirilib. İlk olaraq mərkəzi zonanın oyunları oynanılıb. Bu mərhələnin final görüşündə "Araz-Naxçıvan" və "Culfa" komandaları üz-üzə gəlib. Görüşü qələbə ilə başa vuran Naxçıvan komandası (4:3) final oyununda iştirak etmək hüququ qazanıb.

Qərb zonasında isə keçirilən pley-off mərhələsinin finalına "Arpaçay" və "Kəngərli" komandaları yüksəlib. Görüş Şərur təmsilçisinin 2:0 hesablı qələbəsi ilə başa çatıb.

6 gün davam edən turnirin final görüşü Naxçıvan Muxtar Respublika Stadionunda keçirilib. Həlledici qarşılaşmada "Araz-Naxçıvan" və "Arpaçay" komandaları qarşılaşıb. Gərgin keçən görüş "Araz-Naxçıvan"ın 2:1 hesablı qələbəsi ilə başa çatıb.

Sonda qalib komandaya kubok təqdim edilib.

Turnirdən sonra təşkilatçıların və məşqçilərin fikirlərini öyrəndik.

***Əsgər Abdullayev – "Araz-Naxçıvan"ın baş məşqçisi, NFF-nin böyük məşqçisi:*** – Bu turnir uşaqların inkişafı, püxtələşməsi, ən əsası oyun təcrübələrinin artırılması baxımından önəmlidir. Çünki futbolda hər zaman məşq etməklə nəyəsə nail olmaq mümkün deyil. Oyun təcrübəsi mütləqdir. Bunun üçün Naxçıvan Futbol Federasiyası olaraq qərara gəldik ki, kiçik turnir keçirək və istedadlı uşaqları əsas komandaya cəlb edək. Deyərdim ki, turnir çox mükəmməl şəkildə təşkil olundu. Hər bir zonada komandanın futbolçuları, məşqçiləri ilə söhbətlər aparıldı. Onları hər oyundan əvvəl motivasiya etməyə çalışdıq və taktiki-texniki tapşırıqlarımızı verdik. Şəhər və rayon komandalarındakı istedadlı futbolçuların ayrılıqda qeydiyyatını apardıq. Bu ayın ikinci yarısından etibarən həmin uşaqlarla birgə təlim-məşq toplanışı təşkil olunacaq və tədbirlər planına əsasən yarışlara hazırlanacağıq.

Bu turnirdə futbolçuların, eyni zamanda məşqçilərin çatışmayan cəhətlərini də gördük. İndi əsas məqsəd həmin çatışmazlıqları aradan qaldırmaq, təyin olunan məşq proqramına uyğun məşqlər təşkil etməkdir.

Federasiyanın hədəfləri böyükdür. Bu yolda bizə göstərilən etimadı doğruldub uğur qazanmağa, Naxçıvan futbolunu beynəlxalq arenaya yüksəltməyə çalışacağıq.

***Sakit Rzayev – NFF-nin sədr müavini:*** – 2019-2020-ci illər futbol mövsümü çərçivəsində Naxçıvan çempionatında oynayacaq aşağı yaş qrupları üçün çempionatdan əvvəl bir turnir keçirdik. Məqsədimiz həm də beynəlxalq turnirlərə və Azərbaycanın aşağı yaş milli yığma komandalarının seleksiya məqsədilə keçirilmiş elit məşq layihəsinə futbolçular seçmək idi. Uşaq və yeniyetmələr arasında futbolun təbliği və kütləviliyini artırmaq, komandaların mövsümün başlanğıcı üçün heyətlərinin komplektləşdirilməsi üçün keçirilən turnirdə bir çox çatışmazlıqlar gördük. Burada əsas məsələ aşağı yaş komandalarda oynayan futbolçuların düzgün məşq plan və proqramları əsasında hazırlanmasıdır. Təməl texnika, fərdi hazırlıqların və qrup taktikası fəaliyyətlərinin aşağı səviyyədə olması, oyun şərtlərində məşqlərin keçirilməməsi bariz şəkildə göründü. NFF yeni bir strukturla Naxçıvan futboluna xidmət etməyi qarşısına məqsəd qoyub.

***Bilal Nağıyev – "Arpaçay" komandasının baş məşqçisi:*** – Turnir çox əlamətdar oldu. Uşaqların mütəmadi olaraq belə oyunlarda iştirakı onların praktikasını xeyli artırır. Eyni zamanda belə turnirlər futbolda kütləviliyin əsasını təşkil edir. Artıq komandalara müraciət edənlərin sayı gündən-günə artmaqdadır. Məqsədimiz muxtar respublika yığması üçün istedadlı uşaqlar yetişdirməkdir. Təşkilatçılığa gəlincə, futbolçuların və məşqçilərin rahatlığı üçün hər bir şərait yaradılıb. Oyun barədə onu deyə bilərəm ki, futbolçularımın sərgilədiyi oyundan məmnunam.

**✍ Ceyhun MƏMMƏDOV**

## Komanda-qərargah təliminə start verilib



*Naxçıvan Qarnizonu qoşunlarında ərazidə ikitərəfli üçpilləli komanda-qərargah təlimi başlayıb.*

Təlimin birinci mərhələsində qoşunların müxtəlif döyüşə hazırolma dərəcələrinə gətirilməsi üçün praktik fəaliyyətlərə cəlb edilmiş birləşmə və hissələr təlim-döyüş həyəcan siqnalı ilə qaldırılaraq təlim rayonlarına çıxarılıb.

"Naxçıvan Hərbi Qarnizonu Qoşunlarının 2019-cu tədris ilinə uzlaşdırma planı"na əsasən keçirilən komanda-qərargah təlimi sentyabrın 14-dək davam edəcək.

**Nəriman NƏCƏFOV**

### İtmişdir

Kəngərli rayonu, Qarabağlar kənd sakini Tağıyev Əliağa Tağı oğlunun adına olan JN-712[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 603